# MÜASİR TARİXİMİZİN ŞANLI ZƏFƏRİ

**Zərintac Füzuli qızı Şükürzadə**
*BDU-nun Filologiya fakültəsinin*
*"Azərbaycan dili və ədəbiyyatı müəllimliyi"*
*ixtisası üzrə l kurs tələbəsi.*

Dünya ölkələrinin tarixində bir çox müharibələr, işğallar, geri qayıdışlar və qələbələr baş vermişdir. Azərbaycanın da şanlı tarixinə 8 Noyabr günü qızıl hərflərlə daxil oldu.Biz bu tarixdə misilsiz məharət göstərdik.Mən şərəflə,ləyaqətlə və böyük qələbə hissi ilə bildirirəm ki, bu gün biz tarixi ədaləti bərqərar etdik.Xocalı, 20 Yanvar, 31 Mart və digər soyqrımlarda amansız qırğının,vəhşiliyin qurbanı olan günahsız xalqımızın qisasını layiqincə aldıq!Biz döyüş meydanında erməni qəsbkarlarını əzəli Azərbaycan torpaqlarından birdəfəlik qovduq. Nəhayət, haqq-ədalət öz yerini tapdı, Xocalıya ədalət verildi.! Biz tarixi yenidən yazdıq.

Biz bu tarixi qələbəni həm ölkə rəhbərinin uzaqgörən siyasəti ,həm igid oğullarımızın cəsurluğu, vətənpərvərliyi, həm də xalqımızın çox böyük əzmkarlığı, qətiyyətliliyi sayəsində qazandıq. Gəlin, bu şərəfli tarixə nəzər salaq.

Belə ki, 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi və düşmən məğlubiyyətini etiraf edərək ağ bayraq qaldırdı.Düşmənin ağ bayraq qaldırması ilə yanaşı uzun illərdir işğalda olan ərazilər də öz həqiqi sahiblərinə qayıtdı. Buna qədər 5 şəhər, 4 qəsəbə, 286 kənd, çoxsaylı strateji yüksəkliklər işğaldan azad edilmişdisə, Ermənistanın məğlubiyyətini etiraf etməsindən sonra qarşıdan gələn 20 gün ərzində Ağdam, Kəlbəcər və Laçın rayonlarından işğalçı qoşunların çıxarılması təmin edildi. Halbuki, Ermənistan hakimiyyəti Azərbaycanın dəmir yumruğunu öz üzərində hiss etməyənə qədər torpaqları geri qaytarmaqla razılaşmır, Şuşanı qondarma rejimin paytaxtı etmək istəyir və Azərbaycana qıcıq yaradacaq addımlar atırdı. Ermənistanın illər ərzində yaratdığı ordu sadəcə 44 gün tab gətirdi və beləliklə, dünya ictimaiyyətində Ermənistan ordusu haqda yaranan yenilməzlik mifi puç oldu. Azərbaycan Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə haqq mübarizəsinə qalxdı və düşməni öz ərazilərimizdən çıxardı. Azərbaycan hərb tarixinə yenilik kimi düşən strategiya tətbiq edərək ən müasir silahlardan istifadə etməklə, habelə minimal itkilər verərək qısa müddət ərzində düşmənin bütün hərbi texnikasını məhv etdi, canlı qüvvəsinə

ciddi zərbə vurdu. Azərbaycan Ordusunun yüksək peşəkarlıqla apardığı işğaldan azadetmə əməliyyatı dünya üzrə müharibələrin aparılması sahəsində ciddi dəyişikliklərə səbəb olacaq.Habelə,yüksək dağlıq şəraitdə həyata keçirilən Şuşanın azad edilməsi əməliyyatı Azərbaycanın hərb tarixinin ən parlaq səhifəsidir.

Bu müddət ərzində hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycan rəhbərliyinə diplomatik və siyasi təzyiqlər göstərildi. Prezident İlham Əliyev isə qəti siyasi iradəsini nümayiş etdirdi, bütün təzyiqlərə mərdanə şəkildə sinə gərərək onları dəf etdi, öz prinsipial mövqeyindən dönmədi. İlham Əliyevin dünyanın aparıcı mediasına verdiyi 30-a yaxın müsahibə dünya informasiya məkanında ölkəmizə qarşı olan hücumları darmadağın etdi. Bəzi ölkələr işğalçıya təzyiq etmək və sülh-əminəmanlıq yaratmaq əvəzinə, haqq mübarizəsi aparan Azərbaycana təzyiqlər göstərir, ölkəmizin öz torpaqlarını azad etmək uğrunda apardığı mübarizəni dayandırmaq istəyirdi. Lakin Azərbaycan rəhbərliyinin göstərdiyi iradə ölkəmizin nə qədər güclü və qətiyyətli olduğunu nümayiş etdirdi. Sirr deyil ki, bu xoşbəxtliyi, bu qüruru bizə Ali Baş Komandan İlham Əliyev və rəşadətli Azərbaycan Ordusu yaşatdı. Bu müharibə Azərbaycan xalqının, onun Liderinin, şanlı ordumuzun gücünü bütün dünyaya nümayiş etdirdi. 30 ilə yaxın müddətdə səbir göstərən xalqımız nəhayət qələbəyə çatdı. Noyabrın 10-u ölkəmiz üçün tarixi bir gün oldu. Nəhayət, Azərbaycan, Rusiya Prezidentləri və Ermənistanın Baş naziri birgə bəyənat imzaladılar. Bu sənəd Ermənistanın məğlubiyyətinin açıq etirafı olaraq yaddaşlara həkk olundu. Əminliklə deyə bilərik ki, imzalanmış bəyanat bizim şanlı qələbəmizdir.

Hər kəs bilməlidir ki, artıq Qarabağımıza heç bir status verilmir. Əvvəllər olduğu kimi “Dağlıq Qarabağ Muxtar Vilayəti” adlı ərazi adı yoxdur, tamamilə süquta uğrayıb. Dağıdılmış,yerlə yeksan olunmuş,tarixindən ,mədəniyyətindən əsər-əlamət qalmayan şanlı,şərəfli Qarabağ artıq doğma xalqına qovuşdu.İndi bütöv bir Qarabağ var ki, o da digər rayonlarımız kimi Azərbaycanın tərkibində olan ayrılmaz ərazimizdir.

Vətən müharibəsi Azərbaycanın parlaq qələbəsi ilə başa çatıb, torpaqlarımız işğaldan azad olunub. Erməni tərəfinin biabırçı məğlubiyyəti haqqında hər gün yeni faktlar acıqlanır. Azərbaycanın 400 nəfərlik rəşadətli döyüşçüsü Şuşada möhkəmlənmiş üç mindən çox erməni elit hərbi hissələrini qaçmağa məcbur etmişdir. Təbii coğrafi istehkam olan Şuşanı bir neçə gün ərzində az itkilərlə və şəhərə böyük zərər vurmadan almaq böyük peşəkarlıq, rəşadət rəmzidir. Qəhrəman Azərbaycan əsgərləri kiçik qüvvə ilə Zəngilanı azad etmişdir. Cəbrayılda erməni

zabitləri öz əsgərlərinə döyüşməyin mənasız olduğunu deyərək qaçmışlar. Hadrutda 30 nəfərlik xüsusi təyinatlı dəstəmiz 1500 nəfər erməni muzdlusunu qaçmağa məcbur etmişdir. Azərbaycan əsgəri yaralı döyüş yoldaşlarını çiynində daşıdığı halda ermənilər yaşlı qocaları da qoyub qaçmışlar.

Bu 44 gün ərzində xalqımız və rəşadətli ordumuz misilsiz qəhrəmanlıq göstərdi.Hamı bir yumruq kimi birləşib düşmənə sinə gərdi.Cəsur oğullarımız düşmən qarşısında misilsiz qəhrəmanlıq göstərdi,şəhidlik zirvəsinə ucalaraq qələbəmizi təmin etdilər.

Şəhidlik zirvəsi uca və şərəflidir. Mən şəhid olan hər kəsi yanar bir şama bənzədirəm.O yanaraq cəmiyyəti isidir,ətrafındakıları nura qərq edir.Lakin özü isə cismən bizdən uzaqlara gedir. Gedir, amma cəmiyyəti yaşadır. Mən əminəm ki, bu gün şəhidlərimizin ruhu şaddır. Çünki biz onların əzəldən qoyduğu bu şərfli yolu layiqincə tamamladıq. Biz qələbə qazandıq!

Bu möhtəşəm qələbənin qazanılmasında qardaş Türkiyənin danılmaz rolunu qeyd etmək lazımdır. Belə ki, Türkiyənin qəti mövqeyi bir çox ölkələrin, təşkilatların bu münaqişəyə müdaxilə cəhdlərini alt-üst etmişdir. Türkiyədən dəstək və həmrəylik nümayişi Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir. Türkiyə ilə Azərbaycan arasındakı sarsılmaz qardaşlıq telləri ən möhkəm təməllərə söykənir.

Hər zaman olduğu kimi yenə də ölkə daxilində,eyni zamanda xaricdən xalqımızın qələbəsini,sevincini boğmağa çalışanlar oldu.Müharibənin əvvəlində özlərini xalqa vətənpərvər kimi təqdim edənlər indi müxtəlif bəhanələrlə əldə olunan möhtəşəm qələbənin əhəmiyyətini azaltmağa, cəmiyyətdə zərərli müzakirələrə yol açmağa çalışırlar. Bu gün Azərbaycan hakimiyyətinə qarşı əsassız ittihamlarla çıxış edənlər unutmamalıdır ki, vaxtı ilə məhz onların səriştəsizliyi, bacarıqsızlığı nəticəsində Azərbaycan çətin vəziyyətinə düşmüş, Dağlıq Qarabağı və ətraf rayonları itirmişdir. Bu gün Azərbaycan Prezidenti xalqımıza böyük ağrılar yaratmış həmin səhvləri yüksək siyasi iradəsi, mətinliyi, yüksək diplomatik səriştəsi ilə aradan qaldırdı. Azərbaycan hərb tarixinə yenilik kimi düşən strategiyanı tətbiq edərək özü haqqında məğlubedilməzlik sindromu yaradan Ermənistan silahlı qüvvələrini qısa müddət ərzində darmadağın etdi. Bundan sonra Ermənistan silahlı qüvvələrinə, dövlət olaraq Ermənistana özünü bərpa etmək üçün illər lazım olacaq. Prezident İlham Əliyev qəti siyasi iradəsini nümayiş etdirdi, bütün təzyiqlərə mərdanə şəkildə sinə gərərək onları dəf etdi, öz prinsipial mövqeyindən dönmədi. Ermənistanın və onun havadarlarının işğala və

tədricən Azərbaycan ərazilərinin ilhaqına əsaslanan planları alt-üst oldu. Regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yarandı. Yekun nəticədə Azərbaycan vətəndaşlarının 30 ilə yaxın davam edən torpaq həsrətinə son qoyuldu. Prezident İlham Əliyev nəyi necə və nə zaman etməyi özünün yaxşı bildiyini bir daha nümayiş etdirdi. Bu qələbə azərbaycanlılar haqqında məğlub xalq sindromunu sındırdı, xalqın inamını özünə qaytardı. Bütün dünya gördü ki, Azərbaycan xalqı heç vaxt məğlubiyyətlə barışmayacaq və gec-tez öz amalına qovuşacaqdır. Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasının ən başlıca səbəbidir. Azərbaycan xalqı bundan sonra da öz liderinə böyük etimad göstərərək təmkin nümayiş etdirəcək, hərbi qələbəni siyasi qələbə kimi möhkəmlədirəcək, yumruq kimi Azərbaycan Prezidentinin ətrafında birləşəcək.

Artıq Qarabağda əsgərinə əmr verən Komandan İlham Əliyevdir!

Amma görünən odur ki, İlham Əliyev bununla da kifayətlənən deyil!

Prezident cəbhə bölgəsində verdiyi açıqlamalarda son savaşı "Xeyirlə Şərin mübarizəsi" kimi dəyərləndirdi və şərin nəhayət ki, məhv edildiyini bildirdi. Xüsusi vurğuladı ki, Ermənistan əhalisi indi Azərbaycanın 1992-ci ildəki durumunu yaşayır. "Bizim erməni xalqı ilə işimiz yoxdur. Mən bu 44 gün ərzində çoxsaylı müsahibələrimdə demişəm, onlar bizim vətəndaşlarımızdır və onlar görəcəklər ki, Azərbaycan rəhbərliyi altında onlar yaxşı yaşayacaqlar, onlar kriminal, qorxaq xunta rejimindən öz yaxasını qurtarmalıdırlar" - İlham Əliyevin bu müraciəti əslində, erməni xalqına veriləcək ən yaxşı, ən düzgün məsləhətdir! Onun bu yanaşması artıq Yerevanda geniş əks-səda yaradıb və bu qənaətlə tam razılaşan ermənilərin sayı durmadan artır. İlham Əliyev öz həqiqətləri, düzgün yanaşmaları ilə Ermənistanın ictimai fikrində mifləri dağıdıb və bu proses günü-gündən daha geniş miqyas alır! İlham Əliyev Paşinyana indi onun öz evində - Ermənistanda qalib gəlir!..

Möhtərəm Prezidentin işğaldan azad edilmiş bölgələrdə etdiyi açıqlamaların əksəriyyəti bu ərazilərin bərpası mövzusunda idi. Onun təbirincə desək, "sanki bu torpaqlardan vəhşi bir qəbilə keçib". Bu ərazilərdə nəinki normal bir bina, heç daşı daş üstündə olan yarımtikili də qalmayıb. İlham Əliyev o xarabalıqların üzərində dayanaraq məğrurcasına bəyanat verdi:

"Tezliklə bütün Qarabağda abadlıq, quruculuq, inkişaf başlayacaq!"

Ali Baş Komandan 4 il öncə Lələtəpədəki səngərdən "tezliklə bayrağımız Şuşada, Qarabağda dalğalanacaq" deyərkən nə qədər inamlı və əzmli idisə, indi də

bu dağıntıların tezliklə gülüstana çevriləcəyini söyləyəndə bəlkə də daha artıq əmin və arxayın idi!

Biz, xalqımız, rəhbərimiz başda olmaqla, söz veririk ki, Xocalını, Şuşanı, Zəngilanı, bütünlüklə

Dağlıq Qarabağı çiçəkləndirəcək,onu dünya mədəniyyəti inciləri sırasına daxil edəcəyik. Qoy bu dərs olsun.Örnək olsun ki,haqq-ədalət necə bərpa edilməli, insanlığa, bəşəriyyətə qarşı edilmiş bu cür amansızlıqlar cavabsız qalmamalıdır. Qoy örnək olsun ki,əsl mədəni xalq necə nədəniyyətə malik olmalıdır.

Cənab Pezidentin söylədiklərindən aydın oldu ki, işğaldan azad edilən bölgələrin bərpası xüsusi dövlət siyasəti əsasında reallaşacaq. Öncə düşmən tərəfindən vurulmuş ziyan beynəlxalq ekspertlərin iştirakı ilə dəqiq hesablanacaq. Sonra ərazinin dəqiq uçotu aparılacaq. Azərbaycan və xarici mütəxəssislər yeni şəhərsalma planı əsasında bütün yaşayış məntəqələrinin, infrastrukturun, ekologiyanın bərpası üzrə konkret layihələr hazırlayacaqlar. Hər bir şəhər üçün xüsusi baş plan tərtib ediləcək, burada inzibati və ictimai binalar, məktəblər, tibb ocaqları, küçələr, parklar, xiyabanlar, hətta Qələbə abidələri nəzərə alınacaq. Beləliklə, bərpa-yenidənqurma işlərinə başlanılacaq. Qısa müddətdə zərərçəkmiş bütün insanlar dövlət dəstəyi hesabına öz dədə-baba torpaqlarına qayıdacaqlar. lham Əliyev bu mövzuya da nidasını qoydu: "Hamısını icra edəcəyik, hamısını! Necə ki, torpaqlarımızı qaytardıq, düşməni məhv etdik, bu üçrəngli bayrağımızı ucaltdıq, bütün qalan məsələləri də həll edəcəyik".

"Qarabağ Azərbaycandır!" - bəyanatının Soçidən Xudafərinədək şərəfli taleyi, zəfər yolu oldu. İlham Əliyev bu ifadəni səsləndirdikdən 13 ay sonra onun əsgəri bu milli şüarı Şuşadan car çəkdi...

Şəhidlər qoymadı ensin bu bayraq, Hər dalğası bir şəhidin ruhudu. Vətən iman yerim, Vətən inancım, Bu Vətən savaşı - xalqın ruhudu.

Şuşa baş tacımız, sizsə Şuşanın Tacını bəzəyən qızıl, zərsiniz. İki min yeddi yüz səksən üç şəhid, Bu xalqın dilində ta əzbərsiniz.

Sabah Ağdam "Qarabağ Azərbaycandır!" deyəcək...

Ardınca Kəlbəcər, Laçın "Qarabağ Azərbaycandır!" hayqıracaq...

Bütün millət və məmləkət isə böyük şükranlıq və əbədi minnətdarlıqla hər zaman deyəcək:

Qalib Azərbaycandır!

Qarabağ Azərbaycandır!..